# FƏLSƏFƏ

**UOT 8 (82-96). 130.2**

## ŞƏRQ VƏ QƏRB ARASINDA FƏRQLİ DÜŞÜNCƏ TƏRZİNİN YARANMA SƏBƏBLƏRİ

**Aynurə MƏMMƏDOVA***

***Açar sözlər**: düşüncə, Şərq, Qərb, mədəniyyət, dəyərlər, fəlsəfə*

**"Şərqin idealı kamil insan, Qərbin idealı kamil cəmiyyətdir".**
(Əbu Turxan)

### *XÜLASƏ*

Şərq və Qərb düşüncə tərzləri oxşar və fərqli cəhətlərinə, inkişaf qanunauyğunluqları, mədəniyyət və bədii poeziyasına görə bir-birindən fərqlənirlər. XX əsrin 30-cu illərindən başlayaraq Şərq və Qərb arasında mövcud olan fərqlərin müəyyənləşdirilməsi istiqamətində kifayət qədər araşdırmalar aparılmışdır. Qərb düşüncə tərzində insan tamhüquqlu azad şəxsiyyət kimi formalaşıb çünki, hüquqi dövlət barədə anlayışlar da məhz Qərb ənənələri çərçivəsində yaranıb. Şərqdə isə hər zaman fərdin maraqları deyil ailənin, birliyin, dövlətin maraqlarının vacibliyi üstünlük təşkil edib. Şərq və Qərb arasında fərqi qısaca ifadə etmək istəsək, belə demək olar: Şərq təfəkkürü təəssüratçılıqla, Qərb təfəkkürü təfərrüatçılıqla səciyyələnir. Bəli Qərb təfəkkürü konkret təhlilə, hissi təcrübəyə, induiktiv metoda əsaslanır. Şərq düşüncəsi isə daha çox duyğuya, bütövlüyün hissi və intuisiya ilə mənimsənilməsinə əsaslanır. Məqalədə Şərq və Qərb düşüncə tərzlərinin təhlilindəhəm Qərb, həm də Şərqin dahi mütəfəkkirlərinin, filosoflarının araşdırmalarınageniş yer verilmişdir. Beləliklə, millətlər, adətlər, dinlər, dillər fərqli olsa da, böyük ideyanın yolu birdir vəbu vəhdət bəşəriyyətin bütün böyük zəka sahiblərinin birgə səyı ilə qət edilir.

### Giriş

Şərq və Qərb arasında olan ortaq, oxşar və fərqli düşüncə tərzləri kifayət qədərdir. Belə ki, Şərq ənənəviliyin, Qərb isə müasirliyin simvolu kimi başa düşülür. Əgər Qərb proqressiv, rasional, individual, realist, azadlıqsevər kimi xarakterizə olunursa, Şərq arxaik, subyektiv, ailə həyatına qapalı, mistik, passiv kimi tanınırdı. Bu əlamətlər artıq bir stereotip kimi XIX əsrin ortalarından ideal mədəniyyət tipləriadlandırılan Qərb və Şərq tiplərində möhkəmlənir. Bu dövrdən etibarən Qərb və Şərq terminləri ədəbiyyatda coğrafi anlayışlar kimi deyil, bir-birinə əks olan mədəniyyət obrazları kimi istifadə olunmağa başladı. Orta əsrlər Şərq və Qərb düşüncə tərzində əhəmiyyətli bir dövrdür. Belə ki, qədim ənənənin davam etdiyi digər bölgələrdən fərqli olaraq yeni yaranmış səmavi dinlər xristianlıq və islam həm Qərbdə, həm də Şərqdəinsanların düşüncəsinə, əxlaqına, həyat tərzinə, dünyagörüşünə təsir göstərmiş,fəlsəfi düşüncələrində yeni istiqamətlərin qərarlaşmasına imkan yaratmışdır. Xristian və islam dinlərinin yaranmasında zaman fərqi təqribən 7 əsr olsa da, onların üzərində təşəkkül tapmış həm Qərb, həm də Şərq fəlsəfi düşüncəsinin formalaşması və inkişafı arasında müəyyən müşahidələr aparmaq mümkündür. İlk dövr Şərqdə və Qərbdə fərqli zaman kəsiyində hər ikisində demək olar ki, eyni inkişaf yolunu müşahidə etmək mümkündür. Daha sonra hər ikisindəyeni özünütəsdiq və özünümüdafiə mərhələsi yarandı. Bu, həmdə qədim düşüncələrə yeni rəngin

*AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, kiçik elmi işçi*

qatılması və həm də ehkamlara rasional baxışın yaranması demək idi. İlk dövr həmdə fəlsəfi düşüncənin sistemləşməsi həm Şərqdə, həm də Qərbdə filosof və mütəfəkkirlər yetişdirəcək fəlsəfi məktəb və cərəyanlar yaradıldı. İkinci dövrdə isə İslam Şərqinin renessans dövrü kimi xarakterizə edilir ki, burada Şərq düşüncə tərzi daha mürəkkəb, zəngin inkişaf yolu keÇməsindən bəhs edilir. Üçüncü dövr isə Qərb renessans dövrü adlandırılır ki, bu da orta əsrlərin sonu hesab edilir. Həm Şərq həmdə Qərb uzun sürən müharibələr zamani öz ərazilərini genişləndirmək, maddi nemətlərini artırmaq istəyirdilər. Bu Qərb üçün bir stimul oldu və əldə etdiyi elmi nailiyyətlər sayəsində güclü silahlar, gəmilər ixtira edərək yeni müstəmləkələri işğal edib öz ərazilərini genişləndirdilər (6, səh.179). Qərbin maddi durumu yaxşılaşdıqca yeni ixtiralar, yeni silahlar, yeni yaşayış tərzi Qərbi irəliyə aparırdı. Şərq isə dini elm ilə əvəz etmək iddiasına düşdü və ziddiyyətlər yaranmağa başladı. Şərqə müvafiq olaraq, Şərqdə fəlsəfi düşüncə dinin, Qərbdə isə elmin müstəvisində qərarlaşmağa başladı.

Qədimdə ancaq Şərq var idi və o, bütöv idi. Yeni dövrdə Qərb yarandı və dünya parçalanmış oldu. Daha doğrusu Şərq əvvəlki bütövlük mahiyyətini saxlasa da, əvvəlki nüfuzunu saxlaya bilmədiyindən coğrafi mənada Şərq ölkələrində yaşayanlar da, tədricən Qərb dəyərlərini mənimsəməyə başladılar ki, bu da Şərqin özgələşməsi tendensiyasını yaratdı. Coğrafi mənada Şərq ölkələrinin çoxunda gedən özgələşmə prosesi Qərbin böyük şəxsiyyətləri tərəfindən təəssüflə qeyd olunurdu. Dahi rus şairi A.S.Puşkin Şərq silsiləsindən olan şeirlərinin birində Ərzurum və İstanbulu şərh edərək yazır: İstanbul artıq qədim Şərqin həqiqətindən uzaqlaşmış və Qərbin cəlbedici,aldadıcı, naqis cəhətlərinə uymuşdur, Ərzurum isə öz dəyərini və qədimliyini saxlamağa davam edir. Lakin Şərq bir ideya kimi mədəni mənəvi dəyərlər sistemi kimi Asiya ölkələrinin çoxunda itsə də, ən azı Avropada yaşamağa davam edir (3, səh.22). Avropa Şərqi əvvəlcə muzeylərdə, kitabxanalarda, arxivlərdə saxlayırdı. Son əsrlərdə isə Avropa ancaq Qərb dəyərləri ilə yaşamağın qeyri mümkünlüyünü anlayaraq Şərqə ekzotika kimi deyil, həm də mənəvi bütövlüyə qayıdışın zəruri məqamı kimi baxmağa başlamışdır. Beləliklə, nə ənənəvi Şərq, nə də ənənəvi Qərb düşüncəsi ayrı-ayrılıqda optimal inkişaf modelinin yaradılması üçün yetərli deyil, bunun üçün hər iki tərəfin üstün cəhətləri birləşməlidir. Şpenqlerin dediyi kimi "millətin əsasında ideya dayanır". Bu ideyanın xalqa çatdırılmasının ən anlaşıqlı və idealyolu ədəbiyyatdır. Ədəbiyyat insanın mənəvi-estetik inkişafı prosesində müstəsna əhəmiyyətə malik bir vasitədir. Buna görə də bədii yaradıcılıq qarşılıqlı olaraq həm Şərq həm də Qərb poeziyasında düşüncə, duyğu, oxşarlıq, fərqlilik və dünyagörüşünə təsir göstərdi.XIX əsrdə bu iki mədəniyyət, iki düşüncə tərzi arasında körpü atmaq cəhdləri geniş vüsət almışdır. Qərb sivilizasiyası nümayəndələrinin Şərqi öyrənmək cəhdləri, onların Şərq ölkələrinə səfərləri, müvafiq dillərin və adət ənənələri öyrənmələri sürətləndi. Lakin, əksinə Şərq ölkələrindən Qərbə səyahətlər pərakəndə xarakter daşıyırdı. Belə bir şəraitdə Şərq ruhlu insanların, yaradıcı insanların ABŞ-a, Avropaya köçərək Qərb həyati və Qərb düşüncə tərzi ilə tanış olmaları bu iki sivilizasiyalar qovşağında yazıb yaratmaqları cox əlamətdar hadisə idi. Bu şəxslər bir tərəfdən Qərb dünyasındakı mədəniyyətin Şərq yönlü aspektlərini öyrənir və özləri ilə onlar arasında bir doğmalıq tapır, digər tərəfdən də Qərbdə öyrəndiklərindən bəhrələnərək öz vətənlərində, özlərinin mədəni mənəvi həyatında olan kəm kəsirləri düzəldirdilər. Daha doğrusu bu tendensiya bütövlükdə Avropaya yox,ayrı-ayrı uzaqgörən mütəfəkkirlərinə və dahilərinə aiddir. İ.V. Götenin hələ 1819-cu ildə yazdıgı "Qərb və Şərq" divanı bu istiqamətdə atılmış ən cəsarətli addımlardan biridir. O, bir çox məhdud düşüncəli həmvətənlərindən fərqli olaraq xristianlığı Qərb hadisəsi kimi dəyərləndirməkvə Şərqə qarşı qoymaq iddiasından uzaq idi. Göte bu poeziyanın arxasında Şərqin özünəməxsus dünyagörüşünü və mədəni mənəvi dəyərlər sistemini də görürdü və dini inancları da bura daxil edirdi. Şərqin böyüklüyü bu poeziyada daha gözəl ifadə olunduğundan texniki tərəqqi fonunda mənəvi yoxsullaşma keçirən Qərb dünyası üçün ən yaxşı çıxış yolu, ən yaxşı əlac ilk növbədə Şərq poeziyasına müraciət idi.

Qərb mütəfəkkirləri və şairlərinin Şərq düşüncə tərzi və dəyərlər sisteminə olan ehtiyacı əsla təsadüfi deyildir. Böyük rus yazıçısı L.N.Tolstoy da dəfələrlə Şərq mövzusuna müraciət etməklə bərabər Şərq və Qərbin sintezini oz yaradıcı təfəkküründə də ifadə etmişdir. Onun əsərləri bir çox Şərq ölkələrində az qala milli yaradıcılıq nümunəsi kimi qəbul olunurdu. Tolstoyun həyatında Şərq mədəniyyətinin öyrənilməsi Şərq xalqlarının təmsilçiləri ilə ünsiyyəti, digər böyük rus yazıçılarının

həyatındaolduğu ilə müqayisədə rolu daha böyük yer tutmuşdur. Lev TolstoyŞərqin qədim təlimləri ilə öz sələflərindən daha çox maraqlanır və daha çox öyrənirdi. O, rus yazıçıları arasında birinci olaraq Afrika və Asiya xalqlarının mütəfəkkirləri ilə şəxsi əlaqələr qurmuş və bununla da rus mədəniyyəti ilə Şərq mədəniyyətləri arasında bir növ canlı körpü yaratmışdı. Lev Tolstoyun Çin publisistləri, Hind xadimləri, Yapon ədibləri, Afrika və Asiyanın onlarca yazıçı publisist və ədibləri ilə yazışmaları və onların çoxunun Yasnaya Plyanaya gəlişi –bütün bunlar mədəni dəyərlərin geniş mübadiləsinə və rus ədəbiyyatının Şərqdə populyarlaşmasına rəvac verirdi. İmperializmin dövrünün başlanması ilə Tolstoy dünya yazıçılarından birinci olaraq Asiya xalqlarının müstəmləkə istismarından müdafiəsi yönündə çıxışlar edirdi. Həmçinin Lev Tolstoy İran mədəniyyətinə böyük maraq göstərir, qədim İran abidələri və eposunu öyrənərək Hafiz, Sədi və Firdovsi yaradıcılığından vəcdə gələrək onlardakı incə poetikliyi, həqiqi xalq müdrikliyini, insansevərliyi qeyd etmişdi. Tolstoy Sədi yaradıcılığını yüksək qiymətləndirərək onun "Gülüstan" əsərinin 3-cü fəslindən bir epizodu özünün "Rus oxu kitabı" və "Əlifba" kitablarında nağıla çevirərək yazmışdır.

Şərq ruhunu Qərbdə ən yüksək səviyyədə ifadə edən klassik Şərqin əzəmətini və ecazkarlığını yeni dövrün ifadə vasitələri ilə amerikalıların öz dilində onlara təqdim edən böyük ərəb mütəfəkkiri Cübran Xəlil Cübranı bu gündə qəlbləri riqqətə gətirir. Özü xristian ailəsində anadan olsa da onun səcdəgahı və idealı müsəlman peyğəmbəridir. Onun poeziyası Şərq və Qərbin vəhdətindən doğmaqla yanaşı həm də öz məzmunu və pafoslu etibarı ilə bu vəhdətə xidmət edirdi. Onun təkcə düşüncəsi yox, ruhu da Şərq ruhudur. İctimai inkişafda Şərqə qayıtmaqyox, əksinə Qərb dəyərlərini mənimsəmək və onları Şərqin ruhu ilə isidərək canlandırmaq maddi həyatın cansıxıcı aurasına təravət gətirmək, texnika əsrini insani mahiyyətindən məhrum edən ifrat rasionalizmə liriklik, həzinlik, şəfqət qatmaqla yeni dövrü daha ahəngdar etmək missiyası Cübran sənətinin leymotivi sayıla bilər. Cübranın ənənəvi Şərq fəlsəfi fikrini Qərb oxucusuna daha yaxşı çatdıra bilməsi üçün epik və lirik ifadə formalarından istifadə etdiyinin şahidi oluruq. Cübranın göstərdiyi səylər yazdıqlarını Qərb oxucusu üçün daha anlaşıqlı etmək istiqamətində idi. O, özü bir xristian olmaqla yanaşı Şərq mühitinin o dövrün ictimai gerçəkliyindəki eybəcərlikləri ilə qələmə alaraq yazır: "Dini mənsubiyyətdən asılı olmadan "Şərq elə Şərqdir" (1, səh.65).

Daha bir mütəfəkkir Əmin Əl-Reyhani "Mən Şərqəm" şeirində şərqliliyinmahiyyətini bir neçə baxımdan təqdim edir: "Mən Şərqəm, mən Allahın ilk yaratdığının təməl daşıyam. Burada qoca Şərqi Qərblə görüşdürən Əmin ƏlReyhani digər tərəfdən onu müasir Şərqlə müqayisə edir (5, səh.278). Onun yaradıcı potensialı Qərbin romantizm dəyərlərinin mənimsənilməsi sayəsində güclənirdi ki, bu da ərəb yazıcılarını daha geniş, qlobal, ümumbəşəri problemlər qoya bilmək səviyyəsinədək yüksəldir və son nəticədə onları yalnız dünya ədəbi prosesinin bərabərhüquqlu iştirakçısı deyil həm də yeni bədii dəyərlərin carçısı edirdi. Uzun müddət Amerikada yaşayıb yaratmasına baxmayaraq ƏminƏl-Reyhani Şərq ruhuna həmişə sadiq qalmış Şərq dəyərlərini tərənnüm etmiş insanın mənəvi kamilliyini sivilizasiyanın zahiri cazibəsindən uca tutmuşdur. A.İmanquliyeva yazırdı: "Əmin Əl-Reyhaninin "Mən Şərqəm" şerində Şərqin keçmiş əzəməti barədə düşüncələr yer alır, Şərq rəmzə çevrilir, günəş buradan dogur, həyatın başlanğıcı insan oğlunun yer üzərində ilk addımlarını atdığı yer buradır (1, səh.206). Əmin Əl-Reyhani Şərq ruhunun da ən cox dinlərdə yaşadığını nəzərə alır, İslam dəyərlərinə böyük rəğbət bəsləyirdi. Qərbin elm və mədəniyyətinə yiyələndikdən sonra vətənə qayıtmaq üçün Şərqi düçar olmuş xəstəliklərdən müalicə etmək təşəbbüsü Reyhaninin əsərlərində geniş yer tapmışdır. O, Şərq adamı üçün Qərbə münasibətin ideya əsaslarını müəyyən etmiş elmi, fəlsəfi, bədii yaradıcılığında bu problemlərə geniş yer vermişdir. Burada o, Şərq və Qərbin düşüncə tərzlərinin vəhdət məqamlarını üzə çıxararaq bəşəriyyətin məhz bu vəhdətə doğru inkişaf etmək əzmini təsbit etmişdir.

O dövrün vəhdət yönümlü ruhunu A.Şaiq də gözəl tərənnüm etmişdir:

*Hamimiz bir yuva pərvərdəsiyiz!*
*Hamimiz bir günəşin zərrəsiyiz!*
*Ayırmaz bizləri İncil, Quran*

*Ayırmaz bizləri sərhəddi şəhan!*
*Ayırmaz bizləri həşmətli cibal,*
*Ayırmaz Şərq, Cənub, Qərb, Şimal(5, səh.85).*

Burada birdaha aydın olur ki, millətlər fərqli olsa da adətlər, ənənələr, dinlər, dillər, mədəniyyətlər fərqli olsa da böyük ideyanın yolu birdir və bu vəhdət bəşəriyyətin bütün böyük zəka sahiblərinin birgə sayı ilə qət edilir.

Şərq və Qərb insanının düşüncə tərzini və dünyagörüşünü bir fərdin timsalında qarşılaşdıran Əhməd Ağaoğlu“Mən kiməm” əsərində bu suala cavab axtarmışdır. Burada müəllif Şərq və Qərb cəmiyyətlərini bir biri ilə qarşılaşdırır və Qərbi daha güclü hesab edir. Şərqdə milyonların içərisindəki insan tək-tənhadir, xəstələr, evsiz-eşiksizlər, aclar barəsində heç kəs düşünmür. Qərbdə isə hər kəs haqqında düşünülür və nəticədə unudulmuş bir kimsə qalmır. Müəllif Şərq tarixində eqoizmlə alturizm arasındakı müvazinətin Qərbdə altruizm, Şərqdə isə eqoizmin xeyrinə bu qədər pozulmasının səbəblərini axtarıb tapır. Ə.Ağaoğlu Avropa cəmiyyətinin dayanmadan irəli getməsinin səbəbləri arasında şəxsi mənafenin ümumi mənafedən həmişə arxa planda tutulmasını da xüsusi vurğulayır. Başqa sözlə, hər hansı bir fərd cəmiyyətdə tutduğu hər hansı bir mövqedən asılı olmadan öz şəxsi mənafeyini önə keçirmək barədə qətiyyən düşünmür. Qərb renessansının dünyaya bəxş etdiyi mədəni nümunələrin formalaşdığı bir dövrü Ə.Ağaoğlu böyük təəssüf hissi ilə paralel xatırladır: “Heyif ki,olub bitən bu dərin dəyişikliklərdən Şərq xəbərsizdir. O, hələ də əski qabığının içində əski ruhunu, əski düşüncə və yaşayış tərzlərini saxlamaqdadır”. Beləliklə, Ə.Ağaoğlu bu istiqamətdə bir yazıcı və mütəfəkkir olaraq Şərq və Qərb düşüncə sisteminin daşıyıcısı kimi dünyagörüşünün müəyyənləşdirilməsi, dəyərləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir.

Bir sözlə bütün sənət formalarının o cümlədən, ədəbiyyatın həm hissi həm də əqli tərbiyə funksiyası vardır. M.Qorki yazırdı: “Bədii ədəbiyyatın tərbiyəvi əhəmiyyəti ona görə çoxdur ki, o, eyni zamanda həm düşüncəyə, həm də hissiyyata güclü təsir edə bilir. Çünkiinsanın kamilliyi, onun hissi və əqli qüvvələrinin birliyindədir”.

Bəli, onlar iki mədəni ənənənin həm Şərqin həm də Qərbin mədəni irslərinin daşıyıcıları oldular.

Bu gün elmi texniki tərəqqi sahəsindəki nailiyyətləri ilə bütün dünyanı heyrətləndirən Yaponiya, Şərq və Qərb düşüncə tərzinin üzvü sürətdə birləşməsinə nail olan əsrlər boyu formalaşmış əxlaq, məişət ənənələrini istehsalatda uğurla tətbiq edə bilən yeganə dövlətdir. Dövlətin iqtisadi siyasəti ilə xalqın ənənəvi təfəkkür tərzi arasındakı ziddiyyət minimuma endirilmişdir. Şərq və Qərb arasında fərqi qısaca ifadə etmək istəsəkbelə demək olar: “Şərq təfəkkürü təəssüratçılıqla, Qərb təfəkkürü təfərrüatçılıqla səciyyələnir” (4, səh.149). Bəli, Qərb təfəkkürü konkret təhlilə, hissi təcrübəyə təfərrüatların öyrənilməsi və ümumiləşdirilməsinə, induktiv metoda, subyektin obyektdən ayrılmasına əsaslanır. Şərq düşüncəsi isə daha çox duyğuya, bütövlüyün hissi və intuisiya ilə mənimsənilməsinə, fitrətə obyektin subyektə itməsinə əsaslanır. Lakin bu xüsusiyyətlər, ancaq düşüncənin daxili mexanizminə aiddir. Nəzərə alınmalıdır ki, qərarlaşmış sosial mədəni durum, dəyərlər sistemi də düşüncə tərzinə təsir göstərir. Mühit ideyanı, düşüncəni, təşəbbüsü stimullaşdıra da bilər, onun qarşısını ala da bilər. Düşüncənin internetləşməsi, fikir tənbəlliyi bu gün Şərqin əlamətlərindən birinə çevrilmişdir. Halbuki, məhz Şərqdə düşüncə soyuq ağıla deyil, qaynar zəkaya, şövq və ehtirasa söykənir. Əql məhəbbət kontekstində ortaya çıxır (4, səh.150). Şərq düşüncə tərzi daha yüksək daha ali bir məqamı ifadə edir. Lakin, bu ali məqama hami yüksələ bilmirsə onda ictimai şüurun seçilmişlərin fərdi şüurlarından geri qalması kimlərinsə dalınca getmək, kimə isə kor-koranə inanmaq zərurətini də ortaya çıxardır. İctimai təşkilatlanmadakı fərqlər də, düşüncə tərzindəki fərqlərdən irəli gəlir. Hər dəfə fikirləşmək üçün səmaya qalxmaq, daxili yüksəliş keçirmək zərurəti, geniş kütləni fikir tənbəlliyinə sürükləyir. İctimai mühitin, sosial infrastrukturun ənənəviləşmiş təsir formaları Şərq anlayışınavə səhvən “Şərq düşüncə tərzi” anlayışına daxil edilir (1, səh.124). Düşüncəninsəhv istiqamətdə yönəldilməsi, vasitəninözünə məqsəd etməsi hətta elmi, dini dəyərlərlə əvəz etmək təşəbbüsləri Şərqin tənəzzül səbəblərindəndir. Bizim alimlər səhvən elmi iki yerə bölmüşlər: müsəlman elmləri, Avropa elmləri. Lakin, başa düşmürlər ki, şərafətli elm heç bir millətin malı deyil, kim ona

yiyələnsə onundur. Şərq və Qərb düşüncə tərzlərininqarşılıqlı maraqları üzvü sürətdə birləşdirən sintetik təfəkkürü siyasət sahəsində, beynəlxalq münasibətlər sahəsində, həqiqətən yeni hadisədir. Bu fikir başqa fikirləri istisna etmir, əksinə bir – birini qarşılıqlı sürətdə tamamlayır. Sintetik təfəkkür müxtəlif konseptual sistemlərin dialektik sintezi olmaqla yanaşı, müxtəlif təfəkkür tərzlərinin, milli şüarların bir-birini zənginləşdirilməsini nəzərdə tutduğu kimi, elmi bədii təfəkkürün vəhdəti üçün də meydan açır. Şərq ölkələrini bürümüş olan mövhumatvə cəhalət, elmi düşüncə ənənələrinin zəifliyidir. Bəli, Şərq təfəkkürü nöqsanlardan azad deyil. Digər tərəfdən də ona qarşı qoyulan Qərb təfəkkür tərzi də özünəməxsus nöqsanlara malikdir. Təcrübə göstərir ki, biz Qərb mədəniyyətinin, Qərb təfəkkür tərzinin məhz nöqsanlı cəhətlərini qəbul etməyə daha çox meyilliyik. Bəziləri Avropa ilə bağlı olan hər şeyi mədəniyyət kimi qəbul edir, müasirliyi onunla ayaqlaşmaqda görürlər. Bu zaman nədənsə Avropanın elmi, texnikası, maddi istehsalı yaddan çıxır.Qərbin tərəqqisində həqiqətən böyük rol oynamış olan, onun maddi mədəniyyətini tamamlayan mənəvi mədəniyyət nümunələri unudulur və əksinə Qərbin süqutuna aparıb çıxaran, onun ilkin tərəqqi dövrünün ənənələrinə əsaslanmayan dırnaqarası mədəniyyətlər gecə klubları, kazinolar, barlar, bayağı rok və musiqilər Avropa mədəniyyəti kimi qəbul olunurdu. Qərbin xilas olmaq istədiyi və məmnuniyyətlə bizə ixrac etdiyi bu bayağı mədəniyyətdən ikiəlli yapışmaq, Şərq düşüncə tərzini atıb Qərb düşüncə tərzindən yapışmaq qəbuledilməzdir. Bəli, dünya bu gün bir sıra qlobal problemlərlə üzləşmişdir. Qərb bu problemləri təkbaşına həll etmək iqtidarında deyil. Onun Şərq ruhuna ehtiyacı vardır. Lakin bu ruhçağdaş Şərqin görünən qatlarında görünməz olmuşdur. Çünki,bu ruhani gücün qayıdışına nail olmaq çağdaş Şərqin imkanı xaricindədir və buna nail olmaq üçün Qərbin köməkliyinə ehtiyac vardır. Qərb bütün bəşəriyyətin gələcəyi naminəsəylərini çağdaş Şərqi daha da sıxışdırmağa yox, onun özünə, öz ruhuna qayıtmasına yönəltməlidir.

Müasir dövrdə Şərq və Qərbin qarşılaşdırılması, onların fikir və düşüncətərzində olan özünəməxsusluğun mütləqləşdirilməsi və yalnız bu və ya digər tərəfə üstünlük verilməsi heç bir müsbət nəticəyə gətirə bilməz. Məhz müasir təfəkkür, hətta müxtəlif sivilizasiyalarınbir-birindən köklü sürətdə fərqli olan düşüncə tərzlərini barışdırmaq və onların mütərəqqi cəhətlərini birləşdirməyi üstün tutmuşdur. Çünki, Şərq və Qərb eyni ağacın iki qoludur.

## ƏDƏBİYYAT

1. M. Fətəli Axundov Şərq və Qərbin vəhdəti problemi. http//genderi.org>6-m-f-axundov
2. Bünyatzadə Könül. Şərq və Qərb. İlahi vəhdətdən keçən özünüdərk. Bakı. 2006. 242 səh.
3. Xəlilov Səlahəddin. Şərq və Qərb ümumbəşəri ideala doğru. Fəlsəfi etüdlər. Bakı. “Azərbaycan Universiteti” nəşriyyatı. 2004. 620 səh.
4. Xəlilov Səlahəddin. Şərq zehniyyəti: mənəviyyatın prioritetliyi. Bakı. 2016. 510 səh.
5. Xəlilov Səlahəddin. Elmdən texnikaya və mənəviyyata. Bakı. “Azərbaycan Universiteti” nəşriyyatı, 1998. 264 səh.
6. İmanquliyeva Aida. Cübran Xəlil Cübran. Bakı. Elm. 1975.

## *РЕЗЮМЕ*

***Айнура МАММАДОВА***

***Причины формирования различных способов мышления востока и запада***

***Ключевые слова**: мышление, Восток,Запад, культура, ценности, философия*

Восточный и западный стиль мышления отличаются сходством и различием, закономерностями развития, культурой и художественной поэзией. С 1930-х годов проводятся обширные исследования по выявлению различий между Востоком и Западом. В западном мышлении человек сформировался как полноценная свободная личность, потому что представления о правовом государстве возникли в рамках западных традиций. На Востоке первостепенными всегда были интересы семьи, единства и государства, а не интересы личности. Если мы хотим обобщить разницу между Востоком и Западом, то можем сказать, что восточное мышление характеризуется импрессионизмом, а западное мышление характеризуется подробностями. Да, западное мышление основано на конкретном анализе, чувственном опыте и индуктивном методе. Восточная же мысль, с другой стороны, больше основана на приобретении эмоций с чувством целостности и ментальной интуицией. Статья посвящена исследованию и стилю мышления восточных и западных мыслителей и философов как Запада, так и Востока. Таким образом, хотя нации, обычаи, религии и языки разные, но путь к великой идее один, и это единство преодолевается совокупным числом всех великих умов человечества.

## *SUMMARY*

***Aynura MAMMADOVA***

***The reasons for the emergence of different ways of thinking between the East and the West***

***Keywords**: thinking, East, West, culture, values, philosophy*

Eastern and Western ways of thinking, along with some similarities, are different in terms of patterns of development, culture and artistic poetry. Since the 1930s, extensive research has been carried out to identify the differences between the East and the West. In the West, humans are considered free individuals who are equal in fights; conceps of legal state were also created within the framework of the Western tradition. In the East, however, the interests of the family, unity, and the state have always prevailed over the interests of the individual. To briefly express the difference between the Western and Eastern ways of thinking one can give the following account: Easterner is impressionist, but westerner is interested in details. Western mindset is based on concrete analysis, sensory experience and the inductive method; whereas, latter prefers illuminative or intuitive perception.

To illustrate Eastern and Western mentality in the paper we refer to the great thinkers and philosophers both from the East and West. Thus, although nations are different, customs, religions and languages are different, the path to the great idea is one, and this unity is achieved through the endeavor of the great minds of human race.